**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

## NİHAD HAFİZ OĞLU MUXTARLI

# AZƏRBAYCANIN İQTİSADİYYATININ BEYNƏLXALQ RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN YÜKSƏLDİLMƏSİ

İxtisas: 5310.01 – Dünya iqtisadiyyatı

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2018**



Dissertasiya işi Qərbi Kaspi Universitetində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | iqtisad elmləri doktoru, professor<br>**Rəna Polad qızı Sultanova** |
| **Rəsmi opponentlər:** | iqtisad elmləri doktoru, professor<br>**Səfər Həsən oğlu Pürhani** |
| | iqtisad üzrə fəlsəfə doktoru<br>**Tural Tapdıq oğlu Xəlilov** |
| **Aparıcı təşkilat:** | **Bakı Dövlət Universiteti** |

Müdafiə “28” noyabr 2018-ci il tarixində saat $14^{00}$-da Azərbaycan Dövlət İqtisad Universitetində fəaliyyət göstərən D.02.051 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti.

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat “27” oktyabr 2018-ci ildə göndərilmişdir.

**D.02.051 dissertasiya**
**şurasının elmi katibi,**
**i.ü.f.d., dos.** **M.M.Sadıqov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzusunun aktuallığı.** Qlobal proseslərlə müşayiət olunan davamlı inkişafa keçid iqtisadi münasibətlərin yeni səviyyəsinin formalaşmasını nəzərdə tutur. Sosial-iqtisadi inkişafın innovasiya modelinə keçidi şəraitində Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyi məsələləri milli təsərrüfatçılıq nəzəriyyəsində halledici yer tutur. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndə Azərbaycanın davamlı inkişafını nəzərdə tutan strategiyanın əsas məqsədlərindən biri ölkənin rəqabət üstünlüklərinin formalaşması, inkişafı və idarəedilməsi əsasında Azərbaycan xalqının rifahının durmadan yüksəldilməsinin təmin edilməsindən ibarətdir.

Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyin nəzəriyyə və praktikasının inkişafı Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyi probleminin tədqiqinin əsas istiqamətlərini müəyyən etməyə imkan yaradır. Lakin iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin həm nəzəri, metodoloji, həm də praktiki problemləri kifayət dərəcədə həllini tapmamışdır. İqtisadiyyatın rəqabətqabiliyyətliliyi kateqoriyasının tədqiqini və praktiki istifadəsini qənaətbəxş hesab etmək olmaz. Bu kateqoriyanın mahiyyəti, spesifik cəhətləri və fərqləndirici xüsusiyyətləri sona qədər aşkar edilməmişdir.

Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətində təşkilati-idarəetmə qərarlarının işlənib hazırlanması bu sahədə ölkədə əldə edilmiş təcrübə və biliklərin yenidən qiymətləndirilməsini tələb edir.

Qlobal iqtisadi məkanda rəqabətin kəskinləşməsi şəraitində obyektiv iqtisadi qanunauyğunluqların təhlili əsasında milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin tədqiqi ilə yanaşı, həm də milli iqtisadiyyatının rəqabət üstünlüklərinin formalaşmasını şərtləndirən subyektlərin, strategiyaların və institutların müəyyən edilməsi zərurəti aktuallaşır.

Beləliklə, ölkə iqtisadiyyatının innovasiyalı inkişafı nəzəri, metodoloji və praktiki problemlərin həll edilməsinin zəruriliyini obyektiv olaraq şərtləndirir və Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətliliyin yüksəldilməsi istiqamətində müvafiq tədqiqatların aparılmasını aktuallaşdırır.

**Problemin tədqiqolunma səviyyəsi.** Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi problemi ölkə və xarici alimlərinin əsərlərində, eləcədə beynəlxalq təşkilatların və bir çox dünya ölkələri hökümətlərinin rəsmi sənədlərində öz əksini tapmışdır.

Ölkəmizdə bu problemin müddəaları Azərbaycan Respublikasının Prezidentinin fərmanlarında yer almış, ölkənin perspektiv inkişafı ilə bağlı dövlət proqramlarında əksini tapmışdır.

İqtisadiyyatın rəqabətqabiliyyətliliyi probleminin ayrı-ayrı məsələləri



Ə.Əlirzayev, M.Əhmədov, R.Həsənov, N.İmanov, Q.Manafov, R.Mehdiyev, Ə.Muradov, F.Mustafayev, F.Rəhmanov, Z.Səmədzadə, R.Sultanova, A.Şəkərəliyev, K.Şahbazov və s. kimi ölkə alimlərinin əsərlərində tədqiqat obyekti olmuşdur.

İqtisadiyyatın rəqabətqabiliyyətliliyinin nəzəri və praktiki aspektlərin tədqiqi İ.Ansoff, P.Druker, J-J.Lamblen, M.Porter, C.Qelbreyt, D.Nort, T.Sakaya, F.Fukuyama, L.Erhard kimi xarici alimlərində əsərlərində öz əksini tapmışdır.

Dissertasiya tədqiqatı problemi ilə bağlı məsələlər S.Avdaşeva, A.Voronov, M.Qelpanovski, S.Qubanov, P.Zavyalov, V.Kruqlov, V.Obolenski, V.Polteroviç, Y.Popov, İ.Pyatibratov, V.Radayev, V.Uvarov, R.Fathuddinov, A.Şastiko, Y.Yasin kimi rus alimlərin əsərlərində də tədqiq olunublar.

Lakin ölkə və xarici alimlərin bu sahədə əldə etdikləri nəticələrin əhəmiyyətli olmasına baxmayaraq islahatların sürətlənməsi şəraitində ölkənin rəqabətqabiliyyətliliyinə həsr edilmiş işlərin tədqiqi belə bir nəticəyə gəlməyə imkan verir ki, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması mexanizmlərinin tədqiqinin metodoloji və metodiki əsasları kifaət qədər işlənməmiş və bir sıra prinsipial mövqelərin dəqiqləşdirilməsinə ehtiyac vardır.

Belə ki, kifaət qədər işlənməmiş məsələlərə misal olaraq rəqabətqabiliyyətliliyi münasibətləri sistemində dövlətin yeri və rəqabət üstünlüklərinin formalaşmasında onun rolunu, Azərbaycanın dünya təsərrüfat əlaqələrinə aktiv şəkildə inteqrasiya etməsi şəraitində ölkəmizin rəqabət üstünlükləri və nöqsanlarının kompleks qiymətləndirilməsini göstərmək olar. Mövzunun aktuallığı və onun işlənmə dərəcəsi dissertasiya tədqiqatının məqsədini, vəzifələrini, obyektini və predmetini müəyyən edilməsini şərtləndirmişdir.

**Dissertasiya işinin məqsədi** milli iqtisaduyyatın rəqabətqabiliyyətliliyinin məzmunun, spesifikasının və təkamülünün nəzəri tədqiqindən və gələcəkdə onun artırılması üzrə praktiki təkliflərin hazırlanmasından ibarətdir.

Bu məqsədin həyata keçirilməsi üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin nəzəri əsaslarının tədqiqi;
- müasir şəraitdə ölkələrin rəqabətqabiliyyətliliyinin əsas amillərinin müəyyənləşdirilməsi;
- müxtəlif səviyyələrdə iqtisadi rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi üsullarının araşdırılması;
- ölkənin rəqabətqabiliyyətliliyinin yüksəldilməsində innovasiya amilinin rolunun müəyyənləşdirilməsi;
- ölkənin rəqabət qabiliyyətinin yüksəldilməsinin dövlət tənzimləyici mexanizmlərinin təhlili;
- ölkənin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin dünya təcrübəsinin

araşdırılması;

- beynəlxalq rəqabətqabiliyyətlilik kontekstində Azərbaycan iqtisadiyyatı sahələrinin müasir vəziyyətinin təhlili;
- region ölkələri ilə müqayisədə Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətliliyinin cari vəziyyətinin qiymətləndirilməsi;
- beynəlxalq rəqabətqabiliyyətlilik kontekstində Azərbaycan iqtisadiyyatının problemlərinin aşkarlanması;
- Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi.

**Tədqiqatın obyekti** olaraq qloballaşma şəraitində milli iqtisadiyyat çıxış edir. **Tədqiqatın predmetini** milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi ilə bağlı iqtisadi münasibətlər və institutlar təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** ölkə və xarici iqtisadçıların iqtisadiyyatın rəqabətqabiliyyətliliyi, dünya iqtisadiyyatı, idarəetmə və strateji planlaşdırma problemləri üzrə əsərlərində əksini tapmış fundamental və tətbiqi konsepsiyalar təşkil edir. Əsas instrumentari olaraq davamlı inkişaf, iqtisadiyyatın rəqabətqabiliyyətliliyi məsələlərin tədqiqinə sistemli, kompleks və struktur funksional yanaşma metodologiyası, eləcə də deduksiya, induksiya, ümumiləşdirmə və təhlil metodologiyası təşkil edir.

Tədqiqat prosesində dissertasiya işinin məqsədi və vəzifələri ilə şərtləşdirilmiş tədqiqat metodlarından – qruplaşdırma, müqayisə, sistemli yanaşma, dialektik və tarixi metodlardan, cədvəl və statistik məlumatların təsviri metodlarından, elmi dərketmənin iqtisad-riyazi, riyazi-statistik və digər metodlarından istifadə edilmişdir. Müasir dövrdə Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin təkamülünü aşkar etmək üçün müqayisəli-tarixi metodundan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası** dövlət hakimiyyəti orqanlarının qanunvericilik aktlarından, normativ sənədlərindən, Dövlət Statistika Komitəsinin açıqladığı rəsmi məlumatlarından, İqtisadiyyat Nazirliyinin materiallarından, BMT-nin Avropa İqtisadiyyat Komissiyası, BVF, Beynəlxalq İqtisadi Forum, Dünya Bankı kimi beynəlxalq təşkilatların məlumatlarından, internet-resurslardan, eləcə də, işdə qoyulmuş məsələlərin həlli üçün zəruri olan digər informasiya mənbələrindən ibarətdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir**:**

1. "Beynəlxalq rəqabətqabiliyyətlilik" anlayışına ümumi qəbul edilmiş yanaşmanın olmaması nəzərə alınaraq, Azərbaycan üçün bu fenomenin prioritet aspektləri əsaslandırılmış, buna uyğun yeni tərif təklif olunmuşdur.
2. Qloballaşma şəraitində rəqabətqabiliyyətlilik subyektlərinin transformasiyasını şərtləndirən amillər müəyyənləşdirilmiş və onların ölkənin rəqabətqabiliyyətliliyində rolu aşkarlanmışdır.



3. Rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi prinsipləri əsaslandırılmışdır.
4. Regionların rəqabət qabiliyyətinin artırılması üzrə dövlətin nəzərə alması zəruri olan məqamlar və buna uyğun tənzimləmə siyasətinin istiqamətləri sistemləşdirilmişdir.
5. Sənaye sahələrinin ölkənin rəqabət üstünlüyü üçün vacibliyi əsaslandırılmışdır.
6. Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətlilik problemləri sistemləşdirilmişdir.
7. Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsinin üzrə tədbirlər kompleksi işlənib hazırlanmışdır.
8. Dünya və Azərbaycan üzrə tədqiqat və işləmə xərclərinin təsirinin qiymətləndirilməsi üçün ekonometrik modellər qurulmuş, onların əsasında bu təsirin kəmiyyət qiymətləndirilməsi aşkarlanmışdır.
9. Azərbaycanın beynəlxalq rəqabətqabiliyyətliliyinin yüksəldilməsi məqsədilə elm-istehsal-dövlət və təhsil-istehsal-dövlət vəhdətinin effektiv mexanizmi təklif edilmişdir.

Aparılmış tədqiqat əhəmiyyətli nəzəri və praktiki nəticələrin əldə olunmasına imkan yaratmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, iqtisadiyyatın qloballaşması şəraitində milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin məzmunu, mahiyyəti və təkamülü haqqında elmi təsəvvürlər inkişaf etdirilmişdir.

**Dissertasiya işinin praktiki əhəmiyyətliliyi** ondan ibarətdir ki, dissertasiyada aparılmış tədqiqatların nəticələri elmi tədqiqat təşkilatları və analitik mərkəzlər tərəfindən rəqabətqabiliyyətlilik sahəsində iqtisadi siyasət tədbirlərinin səmərəliliyinin qiymətləndirilməsi, dövlət hakimiyyəti orqanları üçün təkliflərin hazırlanması, Azərbaycan iqtisadiyyatının modernləşdirilməsi strategiyasının işlənib hazırlanmasında istifadə oluna bilər. Dissertasiya materiallarından ali təhsil müəssisələrində "Dünya iqtisadiyyatı", "İqtisadiyyatın dövlət tənzimlənməsi", "Milli iqtisadiyyat", "Rəqabət siyasəti və antiinhisar qanunvericiliyi" kimi fənlərin tədrisində istifadə oluna bilər.

**Dissertasiyanın işinin aprobasiyası və nəticələrinin təhlili.** Tədqiqatın nəticələri Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, respublikanın rəqabətqabiliyyətinin səviyyəsinin yüksəldilməsi, Azərbaycan iqtisadiyyatının aktual problemlərinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransda məruzə edilmiş, dissertasiya işi üzrə ümumi həcmi 6,3 ç.v. olan 1-i xaricdə olmaqla 8 məqalə dərc edilmişdir. Tədqiqat işinin məzmunundan irəli gələn müddəalar və əməli təkliflər Azərbaycan Respublikası Əmək və Əhalinin Müdafiəsi Nazir-

liyinin Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzində istifadə olunmaq üçün qəbul edilmişdir. (26 oktyabr 2018ci il tarixli arayis №70)

**Dissertasiyanın quruluşu və həcmi**. Dissertasiya giriş, üç fəsil, nəticə, 158 adda istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işi 30 cədvəl, 3 şəkil olmaqla 158 səhifədən ibarətdir.

## Dissertasiya işinin strukturu

Giriş
**I Fəsil. İqtisadiyyatın rəqabətqabiliyyətliliyinin elmi-nəzəri əsasları**
1.1. Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin konseptual əsasları
1.2. Müasir şəraitdə ölkələrin rəqabətqabiliyyətliliyinin əsas amilləri
1.3. Rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi üsulları
**II Fəsil. İqtisadiyyatın rəqabətqabiliyyətliliyinin formalaşması mexanizmləri**
2.1. Qloballaşma şəraitində ölkənin rəqabətqabiliyyətliliyinin yüksəldilməsində innovasiya amilinin rolu
2.2. Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin dövlət tənzimlənməsi mexanizmləri
2.3. Ölkənin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin beynəlxalq təcrübəsi
**III Fəsil. Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsi perspektivləri**
3.1. Beynəlxalq rəqabətqabiliyyətlilik kontekstində Azərbaycan iqtisadiyyatı sahələrinin müasir vəziyyəti
3.2. Azərbaycan iqtisadiyyatı beynəlxalq rəqabətqabiliyyətlilik reytinqlərində
3.3. Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətinin yüksəldilməsinin əsas istiqamətləri
Nəticə
İstifadə edimiş ədəbiyyat

## Tədqiqatın müdafiəyə çıxarılan əsas müddəaları və nəticələri

**1. Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin metodoloji əsaslarının tədqiqi.** Müəllif tərəfindən ədəbiyyat mənbələrinin və milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldiməsi təcrübəsinin öyrənilməsi nəticəsində bir sıra mübahisə doğuran və fikir ayrılığı yaradan məqamlar aşkarlanmışdır. Bununla əlaqədar olaraq milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi mexanizminin iqtisadi təbiətinin açıqlanması həm öyrənilən obyektin özünün, həm də onunla əlaqəli və onun mahiyyətini təşkil edən tariflərin müəyyən edilməsi tədqiqat işində "beynəlxalq rəqabətqabiliyyətlilik" anlayışının izahını ortaya qoymağa imkan vermişdir.



"Beynəlxalq rəqabətqabiliyyətlilik" terminınə ümumi qəbul edilən yanaşmanın olmaması, təbii olaraq, Azərbaycan nöqteyi-nəzərindən bu anlayışın subyektiv tərifini gündəmə gətirir. Belə ki, hesab edirik ki, bu tərifdə Azərbaycan üçün mühüm olan rəqabətqabiliyyətlilik aspektləri qabardılmalıdır. Bu baxımdan araşdırılan elementlər arasında müasir Azərbaycan gerçəkliyində vaciblik ardıcıllığı ilə aşağıdakı prioritetləri təklif edirik:

Beynəlxalq bazarın tələblərinə cavab verən əmtəə və xidmət istehsal etmə bacarığı. Sözsüz ki, bu, rəqabətqabiliyyətliliyin əsas atributudur. Rəqabətqabiliyyətli məhsul istehsalı Azərbaycan üçün gündəmdə olan ilkin amildir və qeyri-neft sektorunun ən vacib problemidir. Emal məhsulları üzrə Azərbaycanın beynəlxalq əmək bölgüsündə ixtisaslaşdığı sahələri müəyyənləşdirməli və onların beynəlxalq rəqabətqabiliyyətlilik səviyyəsi artırılmalıdır

Dövlət dəstəyi. Dissertasiyada təhlil olunmuş Avropa təcrübəsindən görünür ki, hətta belə inkişaf etmiş regionda beynəlxalq rəqabətqabiliyyətliliyi məsələsində dövlətin fəal dəstəyinə böyük ehtiyac olduğu duyulur. Azərbaycanda bu məsələ dövlətin diqqət mərkəzində olmalıdır.

Əhalinin yüksək rifahı. İlk baxışdan bu amil ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyi baxımından vacib görünməyə bilər. Lakin əslində bu, çox vacib amildir. Əvvəla, məhsulun həyat dövrü nəzəriyyəsinə görə məhsul beynəlxalq bazarda rəqabət qabiliyyəti qazanmaqdan öncə daxili bazarda uğur əldə etməlidir. Lakin bu şərt zəruri olsa da, kafi deyil – güclü şirkətlərlə xarici bazarlarda rəqabət aparmaq üçün minimal qiymətlərlə keyfiyyətli məhsul təklif olunmalıdır. Bunun üçünsə məhsul daxili bazarda təkmilləşmə mərhələsində məhz yüksək tələblərə malik alıcıların rəğbətini qazanmalıdır. Öz növbəsində alıcıların yüksək tələblərə malik olmasının ilkin şərti onların yüksək maddi rifahıdır.

Yüksək tələblərə cavab verən, həm də ucuz başa gələn məhsul yalnız keyfiyyətli və peşəkar əməyin nəticəsində yaradıla bilər. Belə əmək sağlam və savadlı işçi qüvvəsi tələb edir. Göründüyü kimi, bu şərt də əhalinin yüksək maddi rifahına bağlıdır.

Nəhayət, yüksək rifaha malik əhali həyatın bütün sferalarında, o cümlədən, rəqabət qabiliyyətli məhsul istehsalı üçün əlverişli mühit (şəffaflıq, antiinhisarçılıq, asan biznes və s.) və dövlətin iqtisadi funksiyaları həyata keçirmək məsələləri üzrə də tələbkar olur.

Məhsuldarlıq və effektivlik. Sözsüz ki, bu, rəqabətqabiliyyətliliyin artırılmasının mühüm şərtidir.

Beləliklə, biz aşağıdakı tərifi təklif edirik: "Beynəlxalq rəqabətqabiliyyətlilik" ölkənin elə bir vəziyyətidir ki, bu vəziyyətdə davamlı olaraq:

– onun şirkətləri beynəlxalq bazarın tələblərinə cavab verən əmtəə və xidmət istehsal və ixrac edir;

– artan milli gəlir əhalinin rifahının yüksəldilməsinə yönəldilir;

– dövlət bu vəziyyətin saxlanması və inkişaf etdirilməsini dəstəkləyir.

Dissertasiyada həmçinin ölkənin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin klaster yanaşması tədqiq olunur, müasir şəraitdə ölkələrin rəqabətqabiliyyətliliyinin əsas amilləri araşdırılır, ölkə, şirkət səviyyələrində və ayrıca götürülmüş məhsul üçün rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi üsulları şərh olunur, rəqabətqabiliyyətli inkişafın xüsusiyyətləri, problemləri və onun praktiki reallaşdırılmasında dövlətin rolu araşdırılır.

**2. Qloballaşma şəraitində rəqabətqabiliyyətlilik subyektlərinin transformasiyasını şərtləndirən amillərin müəyyənləşdirilməsi.** İşdə qloballaşma şəraitində rəqabətqabiliyyətlilik subyektlərinin transformasiyasını şərtləndirən amillər müəyyənləşdirilmiş və onların ölkənin rəqabətqabiliyyətliliyində rolu aşkarlanmışdır.

Qeyd edilir ki, iqtisadi sferada rəqabətqabiliyyətlilik anlayışı iki subyektə – müəssisə və ölkəyə şamil edilir. Lakin son onilliklərdə sürətlə baş verən proseslər nəticəsində müəssisə və ölkənin rəqabətqabiliyyətliliyi öz ilkin mənasını itirərək, tamamilə yeni bir anlama gəlir. Əvvəla bu, qloballaşma prosesi və onun mühüm təzahürü və iqtisadi sferada aparıcı qüvvəsi olan transmilli şirkətlərin meydana gəlməsi və həm sayca, həm də məkanca geniş yayılması ilə əlaqədardır: bir çox inkişaf etməkdə olan ölkə müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsinin mühüm səbəbi onların transmilli şirkətlərin nəzarətində olan istehsal zəncirinə qoşulmamalarıdır.

Əksər inkişaf etməkdə olan ölkələrin rəqabətqabiliyyətli səviyyəyə yüksəlməsinin əsas şərti ölkədə əlverişli biznes mühitinin yaradılmasıdır. Digər tərəfdən belə bir şəraitin mövcud olduğu ölkədə perspektivi olan yüksək mənfəətli biznes sahələrinə məhz transmilli şirkətlərin axını başlayır. Başqa sözlə, müasir dövrdə ölkələrin rəqabətqabiliyyətliliyi də əksər hallarda uyğun sahənin transmilli şirkətlərinin dəstəyi ilə bağlıdır. Belə inkişafın parlaq nümunəsi Çin, Braziliya və Hindistan kimi ölkələrdir.

Ölkələrarası inteqrasiya təsvir olunan prosesləri daha da sürətləndirir. Bu, ilk növbədə, inteqrasiya münasibətlərinin ən çox dərinləşdiyi Avropa İttifaqına aiddir. Bu qurumda şirkətlərin milli sərhədləri aşaraq, Avropaya aid olmaları, bəzi hallarda əmtəələrin üzərində "Aİ-də hazırlanmışdır (made in EU)" etiketlərinin yapışdırılması məlum faktdır. İkinci güclü iqtisadi inteqrasiya təşkilatı olan Şimali Atlantika Azad Ticarət Müqaviləsində (NAFTA) də Kanada və Meksikanın iqtisadiyyatının müəyyən sahələrdə rəqabət qabiliyyətinin yüksəlməsində ABŞ transmilli korporasiyalarımın (TNK) rolu danılmazdır.

**3.Rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi prinsiplərinin müəyyənləşdirilməsi.** Dissertasiyanın milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin



qiymətləndirilməsinin aşağıdakı həlledici prinsipləri formalaşdırılmışdır.

Komplekslik. Rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi zamanı ona təsir edən bütün meyarlar nəzərə alınmalıdır. Məsələn, məhsul alınandan sonra istehlak prosesində istehlakçının onun istismarına çəkəcəyi xərclər nəzərə alınması zəruridir.

Müqayisəlilik. Seçilmiş meyarların baxılan məhsul üçün hesablanmış qiymətləri baza kimi qəbul olunmuş məhsulun qiymətlərilə müqayisə olunmalıdır.

İstehlakçı prioriteti. Bu, qiymətləndirmənin təməl prinsipidir. Alıcının analoji məhsullar arasında niyə məhz müəyyən birini seçməsi səbəbi bəlli olmalıdır.

Məqsəd müəyyənliyi. Məhsulun rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi tədqiqatın məqsədinin müəyyənləşdirilməsindən başlanmalıdır.

Dissertasiyada qeyd olunur ki, əgər məhsulun analoji məhsullar arasında mövqeyi müəyyənləşdirilirsə, mühüm parametrlər üzrə bilavasitə müqayisənin aparılması kifayət edir.

Əgər məqsəd məhsulun konkret bazarda satış perspektivini qiymətləndirilməkdirsə, onda: perspektivdə bu bazara çıxarıla biləcək oxşar məhsullar haqqında; bazarın yerləşdiyi ölkədə standartların və qanunvericiliyin dəyişəcəyi haqqında istehlakçı tələbinin dinamikası haqqında məlumatların nəzərə alınması zəruridir.

**4. Regionların rəqabət qabiliyyətinin artırılması üzrə dövlətin tənzimləmə siyasətinin istiqamətlərinin sistemləşdirilməsi.** Dissertasiyada qloballaşma şəraitində ölkənin və müəssisənin rəqabətqabiliyyətliliyinin yüksəldilməsində innovasiya amilinin rolu araşdırılmış, ölkənin rəqabət qabiliyyətinin yüksəldilməsinin dövlətin rolu və dövlət mexanizmləri tədqiq olunmuş - regional və milli səviyyələrdə rəqabətqabiliyyətliliyin təmin olunması üzrə dövlət siyasətinin əsas istiqamətləri, Sinqapur timsalında milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinin dünya təcrübəsi şərh olunmuşdur.

Dissertasiyada belə bir müddəa əsaslandırılır ki, regionların rəqabət qabiliyyətinin artırılması üçün dövlətin aşağıdakı məqamları nəzərə alması və onlarla əlaqəli olan tənzimləmə siyasətinin həyata keçirməsi zəruridir.

Regionların innovativ inkişafında uğurlu olan iki mexanizmin dövlətin diqqətində saxlaması və təşviq etməsi tövsiyə olunur:

1. Regional aqlomerasiya kollektiv öyrənmə prosesini asanlaşdırmaqla informasiya, bilik və ən yaxşı təcrübənin lokal innovativ mühit vasitəsilə sürətli diffuziyasını təmin edir və beləliklə, şirkətlərin innovativ gücünü artırır.

2. Lokallaşdırılmış istehsal sistemlərində qeyri-müəyyənliyin dinamik azalması mexanizmi işə düşür – innovasiya riskləri alıcı-təchizatçı şəbəkələri, texnologiya ötürücüsü agentlikləri, ticarət assosiasiyaları və treninq konsorsiumlarından ibarət olan "yumşaq" infrastruktur nümayəndələri arasında paylanır.

Məsələ burasındadır ki, innovasiyanın məkan perspektivi konsepsiyasına

qədərki dönəmlərdə innovasiya fenomeninə şirkəti əhatə edən ətraf mühitlə az əlaqəsi olan fərdə və ya şirkətə aid olan məhsul kimi baxılırdı. Lakin CREMI Groupun apardığı tədqiqatlar göstərir ki, innovasiya və texnoloji inkişaf daha çox kollektiv, şəbəkə məhsuludur və əsasən müxtəlif agentlərin arasında olan mübadilələr nəticəsində meydana çıxır. Yəni, innovasiya bir təcrid olunmuş müəssisə tərəfindən istehsal olunmur, o, ərazi və ərazidən kənar elementlər arasında qarşılıqlı asılılıq əsasında qurulmuş təşkilatın nəticəsidir.

Son zamanlar belə bir rəy formalaşır ki, kiçik şirkətlər innovasiyaya daha çox meyil edir, böyük şirkətlər isə ətalətlidir. Hesab edirik ki, bu tezisi rədd etmədən eyni zamanda ona ehtiyatlı yanaşmaq, adekvat tətbiq etmək lazımdır. Bu fikrimizi əsaslandıraq. İtaliyanın bir sıra regionlarında iki indikatorun - məşğulluq və məhsuldarlığın artımının tədqiqi zamanı dörd nümunə aşkarlanmışdır:

1) Artan spiral regionları. Belə regionlarda məhsuldarlıq ölkə üzrə orta göstəricidən yüksək olmaqla məşğulluğa yüksək töhfə verir və bu amil gələcək artımı da şərtləndirir.

2) Yenidənqurma regionları. Burada məhsuldarlığın sürətli artımı nəticəsində məşğulluq əhəmiyyətli dərəcədə azalır, istehsal effektivliyi isə artır.

3) Deindustrializasiya. Bu uğursuz regionlarda məşğulluğun azalmasının rəqabətə dağıdıcı təsir göstərməklə iş yerlərinin daimi azalmasına və istehsalın artımının aşağı səviyyədə qalmasına səbəb olur.

4) Sənayenin çiçəklənməsi. Burada məhsuldarlığın aşağı səviyyədə olmasına rəğmən məşğulluq artır.

Bu tədqiqatlar dövlət strukturları tərəfindən siyasi qərar qəbulu üçün aşağıdakı qənaətləri hasil etmişdir:

- Kiçik şirkətlərin xüsusi çəkisinin yüksək olduğu regionlar heç də daha yaxşı xüsusiyyətlərə və məşğulluq artımı göstəricilərinə malik deyil - bəzi regionlar məşğulluğun azalması fonunda daha yüksək nəticələrə nail olmuşdur.
- Region daxilində böyük və kiçik şirkətlərin innovasiya fəallığı eynidir – şirkətin ölçüsündən asılı deyil.

Dissertasiyada ölkənin innovasiyalı inkişafında klasterlərin rolu xarakteizə olunmuşdur.

Məlumdur ki, klaster analizi 4 əsas klaster növünü fərqləndirir:

– innovativ high-tech ərazisi;
– innovativ ənənəvi şirkətlər ərazisi;
– ənənəvi kiçik şirkətlər ərazisi;
– böyük şirkətlər ərazisi.

Tədqiqatlar göstərir ki, innovativ ərazilər daha yaxşı fəaliyyət göstərir. Eyni zamanda tədqiqatlar kiçik şirkətlərin innovasiya mənbələri haqqında suala cavab vermir.



Şirkətin uzunmüddətli mənfəətliliyi və artımında innovasiya həlledici rol oynayır. Eyni zamanda unutmaq olmaz ki, innovasiya, bir qayda olaraq, artım və rəqabət qabiliyyəti üçün zəruri şərtdir, kafi deyil - digər amillər də vardır ki, onlar omadığı halda, innovasiya uğurlu nəticələr verməyə bilər. Güclü əks əlaqəyə malik olmaqla əlverişli biznes mühiti və nümunəvi biznes fəaliyyəti innovativ tutumu yüksəldir, bu isə öz növbəsində şirkətin rəqabət qabiliyyətini artırmaqla daha yaxşı biznes mühitini və biznes fəaliyyətini təşviq edir.

Praktikada qarşılıqlı əlaqəli bütün amillərin məcmusu innovasiya prosesinə cəlb olunur. Məsələn, şirkətin əhatəsi onun innovasiya tutumunun formalaşmasında aparıcı rol oynayır. Bu mühit isə müəyyən amillərin təsirinə məruz qalır (məsələn, makroiqtisadi çərçivə, şirkətin yaxınlığında olan dəstək mexanizmlərinin səviyyəsi və s.). Burada, sözsüz ki, şirkətin daxilindəki proseslər, o cümlədən onun daxilində hökm sürən mədəni mühit də yüksək rola malik olan amillərdəndir. Bu amillər hətta elmi ədəbiyyatda kifayət qədər tədqiq olunmamışdır. Odur ki, hər bir konkret situasiyada siyasi qərarlar qəbulu zamanı bu amillərin təsirləri ayrılıqda və kompleks şəkildə araşdırılmalıdır (şəkil 1).

Ölkə səviyyəsi. Milli İnnovasiya Sistemi (MİS) ölkə daxilində innovativ fəaliyyəti dəstəkləyən institutların məcmusudur. Dissertasiyada qeyd olunur ki, MİS konsepsiyasının əsas mahiyyəti ondan ibarətdir ki, texniki dəyişikliklərin, o cümlədən innovasiyanın milli-spesifik amillərin aparıcı qüvvəsi milli-spesifik amillərdir. Bu, belə izah olunur: “... bu amillərdən bəziləri institusionaldır: məsələn, təhsil, sahəvi innovasiyaya dövlət dəstəyi və müdafiə ilə əlaqəli texnologiya sxemləri. Digərləri tarixə əsaslanır və mədəniyyət, say, dil və ixtisaslaşma ilə əlaqədardır”.[1]




**Şək. 1. Biznes fəaliyyəti sistemi**

*Mənbə: Neely Andy, Hii Jasper . Innovation and business performance: a literature review. - The Judge Institute of Management Studies University of Cambridge, 1998*

MİS konsepsiyası innovasiya sahəsində uğurlu ölkələrdəki rəngarənglik istiqamətində düşünüb dərk etmək baxımından çox faydalıdır və belə təcrübələrdən çıxış edərək, dövlət və biznes sektorlarının rəqabətqabiliyyətliliyə verdiyi

---

[1] *Technology, globalisation and economic performance. Archibugi D., Michie J. (eds.) - Cambridge: Cambridge University Press, 1997*

töhfələrin kəmiyyət qiymətləndirilməsi üzrə kifayət qədər tədqiqatlar mövcuddur.

Dissertasiyada, çoxlu sayda nəşrlərin təhlili əsasında MİS-lərin strukturunu şərtləndirən və onların fəaliyyətini izah edən və buna görə də dövlətin daimi diqqət mərkəzində olmalı olan mühüm aspektlər müəyyənləşdirilmişdir:

- Təhsil və təlimlər. Təhsil və təlim iqtisadi inkişafın taleyüklü komponentidir. Təhsilin beynəlxalq diffuziyasına və xaricdə təhsil alan tələbələrin sayının ildən-ilə artmasına baxmayaraq, təhsil hələ də milli miqyasın qayğısı olaraq qalır.
- Elmi və texnoloji güc. Hər bir millətin tədqiqat və işləmə (R&D) və innovasiya ilə əlaqəli olan digər fəaliyyətləri (məs., dizayn, injinirinq və s.) MİS-in əsas xüsusiyyətlərini təşkil edir.
- Sahəvi struktur. Şirkətlər texnoloji innovasiyanın əsas agentləridir. Sahəvi struktur əhəmiyyətli dərəcədə ölkədəki innovativ fəaliyyətin təbiətini şərtləndirir.
- Elm və texnologiya (S&T - Science and technology) üstünlükləri və zəiflikləri. Hər bir ölkənin S&T-sinin müxtəlif sahələrində üstünlük və zəiflikləri var. Milli S&T ixtisaslaşmasının müəyyən determinantları var: ölkənin ölçüsü, R&D intensivliyi, bazar strukturu, beynəlxalq əmək bölgüsü və s. S&T ixtisaslaşması ölkənin gələcək iqtisadi fəaliyyətinə əhəmiyyətli təsir göstərə bilər.
- İnnovasiya sistemi daxilində qarşılıqlı fəaliyyət. Müxtəlif institutların öz fəaliyyətlərini və digər aktorlarla qarşılıqlı fəaliyyətləri koordinasiya eləmək meyilləri ölkədən ölkəyə əhəmiyyətli dərəcədə fərqlənir. Əksər inkişaf etmiş ölkələrdə dövlətlər böyük daxili şirkətlərlə güclü qarşılıqlı əlaqədədirlər.

Digər ölkələrdə kiçik şirkətlər öz təcrübələri ilə bölüşərək, birgə rəqabət strategiyasını inkişaf elətdirməkdə əməkdaşlıq edirlər. Belə qarşılıqlı fəaliyyət çox vaxt ölkə səviyyəsində həyata keçirilən innovasiya effektini çoxaltmaq və onun diffuziyasını artırmaq imkanına malikdir. Bunun yoxluğu S&T-yə yönələn resursların iqtisadi effektivliyini azaldır.

- Xaricdən absorbsiya. Bəzi, xüsusən Üçüncü Dünya ölkələri ikitərəfli texnologiya transferindən səmərələnir. Lakin son tədqiqatlardan çıxan ümumi nəticə ondan ibarətdir ki, texnologiya transferi bu biliklərin əldə edilməsi üzrə endogen səylər olmadan effektiv ola bilməz.

MİS-nə həsr olunan tədqiqatların əksəriyyəti innovasiya gücü aspektində ölkələr arasında fərqlərin dərk olunmasına səy göstərilir.

**5.Sənaye sahələrinin ölkənin rəqabət üstünlüyü üçün vacibliyinin əsaslandırılması.** İşdə əsaslandırılır ki, aşağıdakı səbəblərə görə müasir dövrdə sənaye sektoru hər bir ölkə üçün böyük önəm kəsb edir.

1. İnsan həyatı üçün zəruri olan ilkin tələbat malları kənd təsərrüfatında istehsal olunsa da, müasir dövrdə onların il boyu son istehlakçıya çatdırılması məqsədilə qablaşdırılması emal sənayesində həyata keçirilir.
2. Dünya üçün ərzaq təhlükəsizliyi problemi, demək olar ki, həll edildiyindən çağdaş dövrümüzdə zəruri tələbat məhsulları *ilkin* tələbat malları ilə məhdudlaşmır. Müasir insanın ləyaqətli yaşayışı və fəaliyyəti üçün digər əmtəə (kompüter, mobil telefon, televizor, soyuducu və s.) və xidmətlər (təhsil, səhiyyə və s.) də zəruriləşmişdir.
3. İnkişaf etmiş ölkələrin, həmçinin Azərbaycanın ÜDM-ində önəmli yer tutan xidmətlərin, əvvəla, demək olar ki, hamısı ya maddi istehsala (yəni sənaye məhsullarına) əsaslanır, ya da onların servisini (məsələn, təmirini) həyata keçirir. İkincisi də bu xidmətlərin böyük bir qismi zəruri məhsul kateqoriyasına aid edilməyə də bilər.



**6. Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətliliyinin cari vəziyyətinin qiymətləndirilməşi.** Dissertasiyada Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətlilik problemləri və amilləri təhlil edilərək aşağıdakı kimi sistemləşdirilmişdir.

Dünya bazar qiymətləri. Bu qiymətlərə təsir Azərbaycanın imkanı xaricindədir. Odur ki, taleyüklü əmtəə və xidmətlərin dünya qiymətlərinin Azərbaycan üçün əlverişsiz istiqamətdə dəyişməsinə hazır olmaq lazımdır. Həm də burada söhbət yalnız ixrac məhsullarından getmir, Azərbaycan əhalisi və iqtisadiyyatı mühüm əhəmiyyət kəsb edən idxal məhsulları da nəzərdə tutulur.

Azərbaycan torpaqlarının əhəmiyyətli hissəsinin işğal altında olması. Təəssüf ki, müəyyən xarici qüvvələr Azərbaycan xalqının öz hüquqlarının bərpasına imkan vermir. Eyni zamanda torpaqların və iqtisadi obyektlərin iqtisadi dövriyyədən çıxarılması nəticəsində Azərbaycan hər il külli miqdarda milli gəlir itirir.

Regiondakı geosiyasi gərginlik. Sözsüz ki, bu, region ölkələrinin investisiya cəlbediciliyini azaltmaqla onların iqtisadi inkişafına güclü zərbə vurur. Belə ki, müasir iqtisadi inkişafın mühüm modeli aparıcı transmilli korporasiyaların birbaşa investisiyalarının ölkəyə cəlb edilməsindən ibarətdir.

Rəqib və tərəfdaş ölkələrin siyasəti. Buna bariz misal 2016-cı il Novruz bayramı ərəfəsində Gürcüstanın İran vətəndaşlarına viza rejiminin aradan qaldırılmasıdır ki, bunun nəticəsində bu dövrdə ənənəvi olaraq Azərbaycana gələn turistlərin böyük qismi Gürcüstana yönəldi.

Sanksiyalar. İnkişaf etmiş ölkələrin birgə sanksiyaları, bir qayda olaraq, hər bir ölkənin iqtisadiyyatı üçün güclü təhdiddir. Bu, qonşu ölkələrdən Rusiya və İranın timsalında özünü göstərir. Bu cür sanksiyalara düşməməyə çalışmaq, eyni zamanda onlara hazır olmaq lazımdır.

Qlobal iqtisadi böhranlar, təbii fəlakətlər.

Müharibə. Bu amil Azərbaycan üçün hələ də çox aktual olduğundan bu hal üçün preventiv tədbirlər həyata keçirilməlidir.

İstənilən halda Azərbaycan hökuməti bu amillərin Azərbaycan üçün əlverişsiz istiqamətdə dəyişməsinə hazır olmalıdır.

Bir çox problemlər QRİ və Biznesin asanlığı indekslərinin təhlili zamanı meydana çıxmışdır. Dünya İqtisadi Forumunun rəqabətqabiliyyətlilik sütunları üzrə Azərbaycanın mövqeyi, uyğun subindeks və subindukatorlar üzrə hesablanan ballar ümumən aşağıdakı cədvəldə əks olunmuşdur (cədvəl 1).

Cədvəl 1

**2016-2017-ci illərdə QRİ sütunlarına görə Azərbaycanın mövqeyi**

| **Sütunlar** | **Ranq** | | **Bal** | |
|---|---|---|---|---|
| | **Ranq** | **Mövqe** | **Bal** | **Mövqe** |
| A subindeksi: Baza tələblər | 49 | Yüksək | 4,9 | Ən yüksək |
| 1-ci sütun: İnstitutlar | 48 | Yüksək | 4,2 | Yüksək |
| 2-ci sütun: İnfrastruktur | 55 | Yüksək | 4,3 | Yüksək |
| 3-ci sütun: Makroiqtisadi mühit | 39 | Yüksək | 5,2 | Ən yüksək |
| 4-ci sütun: Səhiyyə və ibtidai təhsil | 75 | Orta | 5,7 | Ən yüksək |
| B subindeksi: *Effektivliyin gücləndiriciləri* | 59 | Orta | 4,2 | Yüksək |
| 5-ci sütun: Ali təhsil və treninq | 78 | Orta | 4,2 | Yüksək |
| 6-ci sütun: Əmtəə bazarının effektivliyi | 50 | Yüksək | 4,5 | Yüksək |
| 7-ci sütun: Əmək bazarının effektivliyi | 26 | Ən yüksək | 4,8 | Yüksək |
| 8-ci sütun: Maliyyə bazarının inkişafı | 97 | Zəif | 3,5 | Orta |
| 9-ci sütun: Texnoloji hazırlıq | 55 | Yüksək | 4,5 | Yüksək |
| 10-ci sütun: Bazar ölçüsü | 63 | Orta | 3,9 | Yüksək |
| C subindeksi: *İnnovasiya və təcrübə amilləri* | 49 | Yüksək | 4,8 | Yüksək |
| 11-ci sütun: Biznes təcrübəsi | 60 | Orta | 4,0 | Yüksək |
| 12-ci sütun: Tədqiqat və işləmələr innovasiyası | 44 | Yüksək | 3,6 | Orta |

*Mənbə: Schwab K., Xavier S. The Global Competitiveness Report 2016-2017. - World Economic Forum - 2017, s. 107 – məlumatları əsasında tərtib edilmişdir*

Azərbaycanın beynəlxalq rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətində adekvat təkliflərin formalaşdırılması üçün QRİ-nin detallaşdırılmış indikatorları, subindikatorları üzrə aparılmış təhlil ölkə iqtisadiyyatının zəif tərəflərini aşağıdakı kimi aşkarlamışdır.

Mülkiyyət hüquqları. Bu, istənilən xarici investisiya üçün baza amil hesab olunur.

İntellektual mülkiyyətin mühafizəsi. Müasir bilik iqtisadiyyatı dönəmində bu, təbii tələbdir. Azərbaycanın Bazel Konvensiyasına qoşulması bu məsələdə mühüm addım olsa da, intellektual mülkiyyətin faktiki mühafizəsində problemlər qalır.

Məhkəmə sisteminin effektivliyi. Azərbaycanın məhkəmə sistemində aparılan islahatlarin davam etdirilməsinə ehtiyac duyulur. Doing Businessin hesabatına görə məhkəmə prosesinin keyfiyyətinə görə Azərbaycan 5,5 bal yığmışdır. Bu isə orta göstəricidir.

Təhsil sisteminin və təhsilin keyfiyyəti. Təhsilin keyfiyyətinin artırılması bütün sahələrdə işçi qüvvəsinin keyfiyyətinin artırılmasına, innovasiyaların sə-



viyyəsinin yüksəldilməsinə gətirib çıxarır ki, bunlar ölkənin iqtisadi sahədə beynəlxalq rəqabət qabiliyyətini artırır.

İnhisarçılıq. Məhsulun həyat dövri nəzəriyyəsi faktlarla sübut edir ki, hər bir şirkət ilk növbədə daxili bazarda rəqabətə davamlı gətirməli və ancaq bundan sonra beynəlxalq bazara çıxmalıdır, halbuki beynəlxalq qiymətləndirmələ görə Lokal rəqabət indikatoru aşağı səviyyədədir.

Vergi yükü**.** Azərbaycanın məcmu vergi dərəcəsinin yüksək qiyməti bir çox sahələrdə onun şirkətlərinin rəqib şirkətlərlə rəqabətinə mənfi təsir göstərir. Məsələn, vergilər Azərbaycan turizm şirkətlərinin Gürcüstan şirkətləri ilə rəqabətinə mane olur.

Qeyri-tarif baryerlərinin üstünlüyü. Bu da daxili rəqabətə mənfi təsir göstərməklə milli şirkətlərin effektivliyini aşağı salır.

Ticarət tariflərinin yüksəkliyi. Bunun da təsirləri qeyri-tarif baryerlərinin təsiri kimidir.

Respublika iqtisadiyyatının diversifikasiya səviyyəsi. Bu amilin Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətliliyinin zəifliyində həlledici rol oynaması ümumi qəbul olunmuş fikirdir. “Milli iqtisadiyyatın və onun əsas sektorlarının inkişafı üzrə Strateji Yol Xəritəsi”ndə bu xüsusilə qeyd olunur.

Səhm bazarının zəif inkişafı. Bunun çox mürəkkəb səbəbləri olsa da, bu problemin həlli müasir dövrdə ümumən bütün ölkələr üçün, o cümlədən Azərbaycan üçün taleyüklü əhəmiyyəti var. İş burasındadır ki, son dövrlərdə baş verən iqtisadi böhranlardan çıxmağın çətinliyi əhəmiyyətli dərəcədə kreditlərin qaytarıla bilinməməsi və kredit risklərinin yüksəkliyi ilə əlaqələndirilir. Kredit götürmək stimulu minimaldır. Belə bir vəziyyətdə əhalinin qənaətlərinin səhm bazarı vasitəsilə iqtisadiyyata cəlb olunması mexanizmindən istifadə aktuallaşır.

Borclanmanın çətinliyi. Bankların dayanıqlığı. Milli valyutanın devalvasiyası nəticəsində çox sayda bankın böhran vəziyyətinə düşməsi Azərbaycan bank sisteminin dayanıqlığınna təsir edir.

Bazarın ölçüsü. QRİ indeksinə görə Azərbaycanın vəziyyəti qənaətbəxş görünsə də, əslində isə Azərbaycan şirkətləri daxili bazarın kiçikliyi səbəbindən müsbət miqyas effektindən yararlana bilmirlər və buna görə də xarici şirkətlərlə rəqabətdə uduzurlar.

Şirkətlərdə menecmentin səviyyəsi. Bu səviyyənin yüksək olmaması, əvvəla, Azərbaycan şirkətlərinin təcrübəsinin aşağı olması, həm də inhisarçılıq halları ilə izah olunur.

Standartların mükəmməl olmaması. Məhsulların yüksək standartlara uyğunluğu müasir dövrdə rəqabət qabiliyyəti üçün zəruri şərtdir.

Elm-təhsil-istehsal-dövlət vəhdətinin zəifliyi. Bu, Azərbaycanın innovativ inkişafın mühüm şərtlərindəndir.

**7. Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsinin üzrə tədbirlər kompleksinin işlənib hazırlanması.** Azərbaycan iqtisadiyyatının daim rəqabət qabiliyyətli vəziyyətdə saxlanılması, başqa sözlə, davamlı iqtisadi inkişafının təmin edilməsi üçün ilk növbədə endogen problemlər aradan qaldırılmalıdır – iqtisadiyyatın diversifikasiyasına nail olunmalı, etibarlı mülkiyyət hüquqları, intellektual mülkiyyətin mühafizəsi, məhkəmə sisteminin müstəqilliyi təmin edilməli, inhisarçılıq aradan qaldırılmalı, təhsilin keyfiyyəti yüksəldilməli, rasional vergi yükü müəyyənləşdirilməli və tətbiq edilməli, gömrük siyasəti rəqabətqabiliyyətliliyin artırılmasına hədəflənməli, qiymətli kağızlar bazarı qeyri-spekulyativ istiqamətdə inkişaf etdirilməli, bank sistemi və borclanma mexanizmləri təkmilləşdirilməlidir. Eyni zamanda ekzogen amillərin doğura biləcəyi fəsadların yumşaldılması üçün onların hər biri üzrə mühafizə sistemi yaradılmalıdır. Bununla bərabər, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulan məqsədlər və ümumən rəqabətqabiliyyətlilik və davamlı inkişaf hədəflərinə nail olmaq üçün müəyyən məqamlar daha çox diqqət və resurs ayrılması zəruridir. Biz bunlardan əsaslarını qeyd edirik.

1. Əvvəla, iqtisadiyyatın perspektivli sahələrinin, o cümlədən, Strateji Yol Xəritəsində qeyd olunan 6 iqtisadi istiqamətin klaster yanaşması əsasında inkişaf etdirilməsi məqsədəuyğundur. Bu yanaşmanın üstünlükləri və müasir dövrdə ölkənin beynəlxalq rəqabət qabiliyyətinin təmin olunmasında ona alternativ variantın olmadığı dissertasiyada əsaslandırılmışdır.

2. Yol xəritəsində qeyd olunan və inkişaf etdirilməsi nəzərdə tutulan 6 iqtisadi sahə konkretləşdirilməlidir – neft və qaz kimya sənayesinin, ağır sənaye və maşınqayırmanın, turizmin, yüngül və yeyinti sənayesinin, kənd təsərrüfatının çoxsaylı alt sahələrindən məhz hansılarının inkişaf etdirilməsinin məqsədəuyğun olması elmi şəkildə əsaslandırılmalı - hansı məhsullar üzrə Azərbaycanın regional və dünya bazarlarında rəqabət üstünlüyünə malik olması ciddi tədqiqat əsasında müəyyənləşdirilməlidir.

3. Qeyd etdiyimiz kimi, daxili bazarın kiçikliyi Azərbaycan şirkətlərinin müsbət miqyas effektindən tam səviyyədə yararlanmağa – məhsulların maya dəyərinin minimal həddinə nail olmağa imkan vermir. Bunsuz isə şirkətlərin və deməli, ölkənin rəqabətqabiliyyətliliyinin təmin edilməsi çətinləşir. Buna görə də miqyas effektindən tam həcmdə yararlanmaq üçün şirkətlərin xarici bazarlara çıxışı zəruridir. Uyğun dövlət qurumlarının (məsələn, səfirliklərin) də fəaliyyəti bu istiqamətə yönəldilməlidir.

4. Sağlam rəqabət mühitinin yaradılması Azərbaycanın beynəlxalq rəqabətqabiliyyətliliyini zəiflədən daha bir problemin - şirkətlərdə menecmentin aşağı səviyyəsinin – aradan qaldırılmasına gətirib çıxaracaqdır.



5. Sağlam rəqabətin daha bir pozitiv nəticəsi yüksək keyfiyyət standartlarına uyğun məhsulların istehsalının gerçəkləşməsidir. Məlum olduğu kimi, sürətlə inkişaf edən müasir ölkələrdə (emerging countries) istehsalda ikili standartlar prinsipi həyata keçirilir: həm yoxsul, həm də varlı ölkələrə hədəflənmiş məhsullar istehsal olunur. Sözsüz ki, yüksək mənfəət məhz varlı bazarlarda əldə edilir. Odur ki, Azərbaycan şirkətlərinin coğrafi yaxınlıqda yerləşən Avropa və varlı ərəb ölkələrinin bazarlarına hədəflənməsi, ISO-nun standartlarına uyğunlaşması təşviq olunmalıdır.

6. Təhsilin keyfiyyətinə və elmin inkişafına xüsusi fikir verilməlidir. Yüksək təhsil və elm müasir dövrün səciyyəvi xüsusiyyəti olan innovativ inkişafın və onun mühüm tərkib hissəsi olan insan kapitalının inkişafının zəruri şərtidir. Bu fakta əsaslanaraq, biz həm dünya, həm də Azərbaycan üzrə tədqiqat və işləmə iqtisadi xərclərinin artıma töhfəsini qiymətləndiririk.

**8. Dünya və Azərbaycan üzrə tədqiqat və işləmə xərclərinin təsirinin qiymətləndirilməsi üçün ekonometrik modellərin qurulmaşı, onların əsasında bu təsirin kəmiyyət qiymətləndirilməsi.** İşdə belə təsirlərinin kəmiyyət qiymətləndirilməsinin ən effektiv üsulu kimi ekonometrik modellərdən istifadə olunur. Bunun üçün müxtəlif sosial-iqtisadi inkişaf səviyyələrinə malik əsasən inkişaf etməkdə olan 19 ölkənin 1996-2016-ci illərdəki göstəricisindən istifadə edilir: Hindistan, Avstraliya, Braziliya, Çin, Çili, Yunanıstan, Şri Lanka, Meksika, Monqolustan, Malayziya, Yeni Zelandiya, Pakistan, Filippin, Paraqvay, Tailand, Sinqapur, Türkiyə, Uruqvay, Cənubi Afrika.

Cədvəl 2-dən göründüyü kimi 1996-2016-cü illər ərzində dünya ÜDM-i 2,44 dəfə artsa da, R&D xərcləri (tədqiqat və işləmə xərcləri) daha sürətlə - 2,61 dəfə artmışdır. Bunun nəticəsidir ki, bu xərclərin ÜDM-də orta payı 1,987%-dən 2,124%-ədək artmışdır. Qeyd etdiyimiz kimi, bu bilik-informasiya cəmiyyətinin, iqtisadi aspektdən yanaşsaq, innovativ iqtisadiyyatın xüsusiyyətidir.

Cədvəl 2

**Dünya üzrə ÜDM-in və tədqiqat xərclərinin dinamikası**

| | ÜDM, cari trilyon ABŞ dolları | ÜDM-in illik artımı, % | R&D xərcləri, cari trilyon ABŞ dolları | R&D xərclərinin artımı, % | R&D-nin ÜDM-də payı, % |
|---|---|---|---|---|---|
| 1996 | 31,401 | 3,331 | 0,624 | 0,00 | 1,987 |
| 2000 | 33,391 | 4,342 | 0,693 | 3,23 | 2,075 |
| 2005 | 47,208 | 3,824 | 0,938 | 7,68 | 1,986 |
| 2010 | 65,651 | 4,372 | 1,351 | 9,58 | 2,058 |
| 2015 | 74,435 | 2,445 | 1,586 | 6,13 | 2,131 |
| 2016 | 76,529 | 2,478 | 1,626 | 2,49 | 2,124 |
| 1996-2016-də artım, % | 2,44 | | 2,61 | | |

*Mənbə: http://data.worldbank.org/indicator/GB.XPD.RSDV.GD.ZS-nin məlumatları əsasında tərtib edilmişdir*

Qurduğumuz ekonometrik modellərin adekvatlığını yüksəltmək üçün biz izahedici dəyişənlər olan R&D xərclərinin və onların ÜDM-də payının müxtəlif olduğu ölkələri seçmişik. Cədvəldən ÜDM-lə bu iki göstərici arasında aşkar əlaqə görünmür: elə ölkələr vardır ki, onların R&D xərclərinin ÜDM-də payı yüksəkdir, amma onların ÜDM-lərinin artım tempi bu payın kiçik olduğu ölkələrdən aşağıdır (məsələn, Avstraliya və Hindistan). Bundan əlavə, ÜDM-in artım tempi ilə R&D xərclərinin ÜDM-də payı arasında hesabladığımız korrelyasiya əmsalı -0,376 olması ilk baxışdan bu indikatorlar arasında əlaqənin mənfi olması qənaətinə gətirə bilər. Lakin, sözsüz ki, bu belə deyil və bunun aşağıdakı izahları var:

- Məsələn, ÜDM-in artım tempinə təsir edən digər mühüm amillər də var. Məsələn, Avstraliya kimi inkişaf etmiş ölkələrin iqtisadiyyatları müəyyən mənada "doymuş" iqtisadiyyatlardır, Hindistanın güclü iqtisadi potensialı isə tamamilə reallaşmamışdır.
- ÜDM-i kiçik olan ölkənin R&D xərclərinin ÜDM-də payı çox böyük olsa da, mütləq qiymətcə kiçik olduğuna görə böyük effekt verməyə də bilər.
- R&D xərclərinin böyüklüyü kifayət deyil. Onlar səmərəli istiqamətlərə yönəlmədikləri halda effekt də zəif olur.

Bu faktı bu iki indikator arasında qurduğumuz ekonometrik model də təsdiqləyir (cədvəl 3). Avtokorrelyasiyası, demək olar ki, olmayan (Darbin-Uatson statistiki = 2,38) olan bu modelin determinasiya əmsalının çox kiçik ($R^2$ = 0,05) və C(2) əmsalının P-qiymətinin kifayət qədər böyüklüyü (Prob=0,37) R&D xərclərinin ÜDM-də payının ÜDM-in artım tempi üçün həlledici olmadığına dəlalət edir. Eyni zamanda C(2) = 0,76 göstərir ki, ümumən R&D xərclərinin ÜDM-də payının 1% bəndi artımı ölkənin 17 illik (1995-2011) ÜDM-nin artımını 0,75% bəndi artırır.

Cədvəl 3

**19 ölkə üzrə ÜDM-in artım tempinin R&D xərclərinin ÜDM-də payından asılılıq modeli**

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: GDP_GR | | | | |
| Method: Least Squares | | | | |
| Date: 01/21/17 Time: 18:18 | | | | |
| Sample: 1 19 | | | | |
| Included observations: 19 | | | | |
| GDP_GR=C(1)+C(2)*RD_SHARE | | | | |
| | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| C(1) | 3.869327 | 0.693713 | 5.577707 | 0.0000 |
| C(2) | 0.758484 | 0.817324 | 0.928009 | 0.3664 |
| R-squared | 0.048216 | Mean dependent var | | 4.364737 |



Cədvəl 3-ün ardı

| | | | |
|---|---|---|---|
| Adjusted R-squared | -0.007771 | S.D. dependent var | 1.923539 |
| S.E. of regression | 1.930999 | Akaike info criterion | 4.253253 |
| Sum squared resid | 63.38887 | Schwarz criterion | 4.352667 |
| Log likelihood | -38.40590 | Hannan-Quinn criter. | 4.270078 |
| F-statistic | 0.861200 | Durbin-Watson stat | 2.384122 |
| Prob(F-statistic) | 0.366393 | | |

*Qeyd: Eviews proqramı vasitəsilə ilə generasiya olunmuşdur*

ÜDM-in qiymətinin R&D xərclərindən asılılığı daha mükəmməldir – burada determinasiya əmsalı yüksək ($R^2$ = 0,94), C(2) əmsalının P-qiymətinin kifayət qədər kiçikdir (Prob=0,0000). Avtokorrelyasiya da çox cüzidir (Darbin-Uatson statistiki = 2,63) (cədvəl 4). Bu modeldən göründüyü kimi R&D xərclərinin 1 milyard dollar artımı ÜDM-in qiymətini 70 milyard dollar artması ilə nəticələnir.

Cədvəl 4.

**19 ölkə üzrə ÜDM-in R&D xərclərindən ÜDM-dən asılılıq modeli**

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: GDP | | | | |
| Method: Least Squares | | | | |
| Sample: 1 19 | | | | |
| Included observations: 19 | | | | |
| GDP=C(1)+C(2)*RD | | | | |
| | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| C(1) | 2010.379 | 664.6789 | 3.024586 | 0.0076 |
| C(2) | 70.98186 | 4.255850 | 16.67865 | 0.0000 |
| R-squared | 0.942408 | Mean dependent var | | 6940.928 |
| Adjusted R-squared | 0.939020 | S.D. dependent var | | 10508.32 |
| S.E. of regression | 2594.942 | Akaike info criterion | | 18.65982 |
| Log likelihood | -175.2683 | Hannan-Quinn criter. | | 18.67664 |
| F-statistic | 278.1775 | Durbin-Watson stat | | 2.632585 |
| Prob(F-statistic) | 0.000000 | | | |

*Qeyd: E-views proqramı vasitəsilə ilə generasiya olunmuşdur*

Oxşar model Azərbaycan üçün də maraqlı nəticələr verir (cədvəl 5).

Cədvəl 5

**Azərbaycanda 5 il əvvəlki R&D xərclərinin ÜDM-in artım tempinə təsiri asılılıq modeli**

| | | |
|---|---|---|
| Dependent Variable: GDP_GROWTH | | |
| Method: Least Squares | | |
| Date: 01/21/17 Time: 16:17 | | |
| Sample (adjusted): 2001 2013 | | |
| Included observations: 13 after adjustments | | |

*Cədvəl 5-in ardı*

| GDP_GROWTH=C(1)+C(2)*RD_GDP(-5) | | | | |
|---|---|---|---|---|
| | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| C(1) | -35.02286 | 20.96812 | -1.670291 | 0.1230 |
| C(2) | 18.71279 | 10.36745 | 1.804955 | 0.0985 |
| R-squared | 0.228496 | Mean dependent var | | 2.815846 |
| Adjusted R-squared | 0.158359 | S.D. dependent var | | 1.675222 |
| S.E. of regression | 1.536865 | Akaike info criterion | | 3.838005 |
| Sum squared resid | 25.98150 | Schwarz criterion | | 3.924920 |
| Log likelihood | -22.94703 | Hannan-Quinn criter. | | 3.820140 |
| F-statistic | 3.257864 | Durbin-Watson stat | | 2.137367 |
| Prob(F-statistic) | 0.098498 | | | |

*Qeyd: E-views proqramı vasitəsilə ilə generasiya olunmuşdur*

Bu modeldə 2000-2016-ci illər ərzində yığılmış məlumatlar əsasında Azərbaycanda R&D xərclərinin 5 illik laqla ÜDM-in artım tempinə təsiri tədqiq olunur. Burada da determinasiya əmsalının kiçikliyi ($R^2$ = 0,23) və C(2) əmsalının P-qiymətinin kifayət nisbətən böyüklüyü (Prob=0,1) ÜDM-in artım tempinə təsir edən digər önəmli amillərin modeldə nəzərdə alınmamasına dəlalət edir. Avtokorrelyasiya bu modeldə də, demək olar ki, yox səviyyəsindədir (Darbin-Uatson statistiki = 2,14). Modeldən göründüyü kimi R&D xərclərinin 1 milyard dollar artımı 5 ildən sonra Azərbaycan ÜDM-in artım tempinin 18% bəndi qədər artmasına səbəb ola bilər.

**9. Azərbaycanın beynəlxalq rəqabətqabiliyyətliliyinin yüksəldilməsi məqsədilə elm-istehsal-dövlət və təhsil-istehsal-dövlət vəhdətinin effektiv mexanizminin işlənib hazırlanması.** Dissertasiyada Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsinin istiqamətləri araşdırılmışdır.

İşdə belə bir qənaət əsaslandırılır ki, respublikada elm-istehsal-dövlət, təhsil-istehsal-dövlət vəhdətinə nail olunmalıdır. Azərbaycanda R&D xərclərinin ÜDM-də payı müasir dünya standartlarında təqribən 10 dəfə az olmaqla (təqribən 0,2%) cüzidir. Azərbaycan elminin daha bir mühüm problemi onun praktikadan, o cümlədən istehsaldan uzaq olmasıdır.

Biz, ən azı, dövlət büdcəsi tərəfindən maliyyələşən elmi-tədqiqat müəssisələrinin praktik yönlü tədqiqatlara cəlb olunmasını və bunun reallaşdırılması üçün aşağıdakı mexanizmi təklif edirik.

- Dövlətin təşəbbüsü ilə biznes və elm nümayəndələrindən ibarət qurum yaradılsın.
- İki istiqamətdə məlumat bazası yaradılır:

– istehsal müəssisələrinin tədqiqat tələbi;



– tədqiqat qurumları və ixtiraçıların istehsal yönlü təklifi.

- Tədqiqat qurumlarının və ixtiraçıların istehsal yönlü araşdırmaları haqqında məlumat istehsal müəssisələrinə çatdırılır və maraqlı müəssisə olarsa, ödəniş əsasında mübadilə həyata keçirilir.
- İstehsal müəssisələrinin tədqiqat tələbi əsasında tədqiqat qurumları arasında bu tip tədqiqatın həyata keçirilməsi üzrə tender təşkil olunur.
- Ən azı, ilk dövrlərdə tədqiqat xərclərinin bir hissəsini öz üzərinə götürməklə, dövlət biznesin bu tədbirə marağını təşviq edə bilər.
- Analoji qurum biznes və təhsilin uzlaşdırılması istiqamətində yaradılmalı, təhsilin prioritetləri müəssisələrin işçi tələbinə uyğunlaşdırılmalıdır. Belə təhsilin qismən şirkətlər tərəfindən maliyyələşdirilməsinin effekti böyük olar.

Təhsil müəssisləri ilə istehsal müəssisələrinin müasir avadanlıq və trenajorlarla təmin olunmuş birgə istehsal kolleclərinin yaradılması istiqamətində işlərin həyata keçirilməsi məqsədəuyğundur.

Bu tədbirlərin əksəriyyəti biznes təşkilatları ilə qarşılıqlı münasibətdə həyata keçirilməlidir. Yalnız dövlətlə biznesin razılaşdırılmış və ahəngdar fəaliyyəti nəticəsində nəzərdə tutulan nəticəni əldə etmək mümkündür. Eyni zamanda şirkətlərin effektivliyinin artırılması istiqamətində də şəffaf dövlət siyasətinin formalaşdırılması zəruridir. Liberal iqtisadiyyat şəraitində dövlətin müəssisələrin fəaliyyətinə bilavasitə müdaxilə edilməsi mümkün olmasa da, təşviqedici bazar mexanizmlərindən istifadə etmək mümkündür. Bu zaman şirkətlərin rəqabət qabiliyyətinin yüksəldilməsinin aşağıdakı əsas məqamlarını diqqətdə saxlamaq lazımdır.

1. Yeni formalaşmağa başlayan iqtisadi sahələrin ilk dövrlərdə xarici rəqabətdən mühafizəsi üçün dövlət himayəsinə ehtiyacı vardır.
2. Rəqib xarici şirkətlərin dövlətləri də öz şirkətlərinə münasibətdə proteksionist siyasət həyata keçirirlər. Bu, xüsusən nəhəng transmilli şirkətlərə aiddir.
3. Rəqabətin dəstəklənməsi dövlətin mühüm iqtisadi funksiyası olsa da, onu da nəzərə almaq lazımdır ki, daxili bazarın tutumunun kiçik olduğu ölkələrdə satış həcmi çox olmayan bir sahənin həddən çox xırdalanması, yəni çoxlu şirkətlərlə təmsil olunması onların istehsal effektivliyini azaldır.
4. Aparıcı dünya kompaniyalarının təcrübəsi göstərir ki, onların rəqabət üstünlüyünün əsas şərtlərindən biri əsaslandırılmış strategiyanın olmasıdır.
5. Cənubi Koreya, Sinqapur, Malayziya kimi əksər yeni sənaye ölkələrinin iqtisadi inkişafının kökündə onların aparıcı transmilli şirkətlərin istehsal zəncirlərinə qoşulması durur.

Nəhayət, məhz dövlət qlobal iqtisadiyyatın perspektivli sektorlarının ölkədə inkişafını təmin etməlidir. Məsələn, McKinsey Qlobal İnstitutunun araşdırmaları yaxın gələcəyin aparıcı 12 sahəsini qeyd edir ki, Azərbaycanın da

bu seqmentlərdən, heç olmazsa, bəzilərinə hədəflənməsi ölkənin davamlı inkişafı və beynəlxalq rəqabət qabiliyyətinin artırılması üçün məsləhətlidir:

- Mobil internet. Bu, dünya əhalisinin 4,3 milyardının internetdən istifadə etməməsi ilə əsaslandırırlır.
- İntellektual əməyin avtomatlaşdırılması (automation of knowledge work).
- “Şeylərin interneti” avadanlıqları. Məsələn, xəstəliklərin müalicəsinin distant nəzarətini təmin edən avadanlıq.
- “Bulud” hesablamaları (Cloud).
- Qabaqcıl robot texnikası (Advanced robotics).
- Yeni nəsil genomikası (Next-generation genomics)
- Özü idarə olunan və yarım özü idarə olunan avtomobillər (autonomous and near-autonomous vehicles).
- Enerjinin saxlanması (Energy storage).
- 3-D çap (3-D printing).
- Müasir materiallar (Advanced materials).
- Neft və qazın istismarı və kəşfiyyatının qabaqcıl üsulları (Advanced oil and gas exploration and recovery).
- Bərpa olunan enerji mənbələri (Renewable Energy).

Beləliklə, dissertasiya işində Azərbaycan iqtisadiyyatına beynəlxalq rəqabətqabiliyyətinin artırılması problemlərinin tədqiqi göstərmişdirki, davamlı iqtisadi inkişaf üçün struktur islahatlarının sürətlənməsi, milli iqtisadiyyatın şaxələnməsi, milli istehalçıların beynəlxalq rəqabətqabiliyyətliliyinin artırılması zəruridir. Sənayenin vacib istehsal güclərinin modernləşdirilməsi, iqtisadiyyatın müxtəlif sahələrində klasterlərdən istifadə olunmsı, insan kapitalının inkişaf etdirilməsi nəticəsində respublika artıq yaxın gələcəkdə sürətli inkişaf üçün əlavə innovasiyalı stimulları əldə edə bilər.

**Dissertasiya işinin əsas müddəaları və işdən irəli gələn praktik təkliflər aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:**

1. **Muxtarli N.H.** Azərbaycan qazının Avropanın enerji gələciyini təmin edən boru kəmərlərinin strateji təhlili. Beynəlxalq elmi-praktik konfransın materialları. AMİU. Bakı, 2014, s. 31-34, (0,5 ç.v.)
2. **Muxtarlı N.H.** Müəssisələrin rəqabətqabiliyyətliyinin qiymətləndirilməsinin əsasları və müasir inkişaf səviyyəsi. AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası. Elmi-praktiki jurnal AMEA-nın İqtisadiyyat İnstitutu Bakı, 2016-2 (mart-aprel), s. 53-64, (1,4 ç.v.)
3. **Muxtarlı N.H.** Məhsulun rəqabətqabiliyyətliyi konsepsiyası və onun qiymətləndirilməsi məsələləri. AMEA-nın Elmi əsərləri, AMEA-nın İqtisadiyyat İnstitutu Bakı, 2017-1 (yanvar-fevral), s. 74-78, (0,6 ç.v.)
4. **Muxtarlı N.H.** Rəqabətqabiliyyətlilik konsepsiyalarının müqayisəli



təhlili. AMEA-nın Elmi əsərləri, AMEA-nın İqtisadiyyat İnstitutu Bakı, 2017-3 (may-iyun), s. 50-55, (0,75 ç.v.)
5. **Muxtarlı N.H.** Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətlilik problemləri və onların aradan qaldırılması yolları. AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası. Elmi-praktiki jurnal AMEA-nın İqtisadiyyat İnstitutu Bakı, 2017-3 (may-iyun), s. 21-26 (0,75 ç.v.)
6. **Muxtarlı N.H.** Ölkənin rəqabət qabiliyyətliliyinin yüksəldilməsinin dövlət mexanizmləri. Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri. AR Odlar Yurdu Universiteti. Bakı, 2017 (№46), s. 205-213, (1 ç.v.)
7. **Muxtarlı N.H.** Ölkənin rəqabət qabilliyətliliyinin formalaşmasında innovasiyaların rolu. Kooperasiya Elmi-praktiki jurnal, “Azerittifaq” Azərbaycan Kooperasiya Universiteti. Bakı, 2017 (№46), s. 150-155, (0,75 ç.v.)
8. **Мухтарлы Н.Х.** Современное состояние международной конкуренто-способности экономика Азербайджана. Экономика та держава. Наука во -практичный журнал. Наказ Міністерства освіти і науки України № 10 жовтень 2017 р., s. 48-52, (0,6 ç.v)

**Мухтарлы Нихад Хафиз оглы**

## ПОВЫШЕНИЕ МЕЖДУНАРОДНОЙ КОНКУРЕНТОСПОСОБНОСТИ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА

### Р Е З Ю М Е

Диссертационная работа посвящена исследованию проблем повышения международной конкурентоспособности Азербайджанской экономики.

Работа состоит из введения, трех глав, заключения и списка использованных источников.

Во введении обосновывается актуальность темы, определяется уровень изученности проблемы, цели и задачи, объект и предмет исследования, характеризуется научная новизна, теоретическая и практическая значимость работы, апробация исследования, а также ее структура и объем.

В первой главе диссертации «Научно-теоретические основы конкурентоспособности экономики» исследуются следующие вопросы:

- подходы к понятию конкурентоспособность и концепции международной конкурентоспособности.
- основные факторы конкурентоспособности страны в современную эпоху.
- методы оценки конкурентоспособности на различных уровнях.

Во второй главе «Механизмы формирования конкурентоспособности экономики» особое внимание уделяется исследованию:

- роли инновационного фактора в повышении конкурентоспособности страны в условиях глобализации.
- государственным механизмам повышения конкурентоспособности.
- мирового опыта повышения конкурентоспособности страны.

В третьей главе «Перспективы повышения международной конкурентоспособности Азербайджанской экономики»:

- проанализировано современное состояние отраслей Азербайджанской экономики под углом зрения международной конкурентоспособности.
- оценено современное состояние международной конкурентоспособности Азербайджанской экономики.
- выявлены и сформулированы основные направления повышения международной конкурентоспособности Азербайджанской экономики.



***Nihad Hafiz Mukhtarli***

## IMPROVING THE INTERNATIONAL COMPETITIVENESS OF THE AZERBAIJANI ECONOMY

### S U M M A R Y

The thesis is devoted to the study of the problems of increasing the international competitiveness of the Azerbaijani economy.

The work consists of an introduction, three chapters, conclusion and a list of sources used.

The introduction substantiates the relevance of the topic, determines the level of study of the problem, goals and objectives, object and subject of research, characterized by scientific novelty, theoretical and practical significance of the work, testing of the study, as well as its structure and volume.

In the first Chapter of the dissertation "Scientific and theoretical basis of competitiveness of economy" the following questions are investigated:

- approaches to the concept of competitiveness and the concept of international competitiveness.
- the main factors of the country's competitiveness in the modern era.
- methods of assessing competitiveness at different levels.

In the second Chapter "Mechanisms of formation of competitiveness of the economy" special attention is paid to the study:

- the role of innovation in improving the competitiveness of the country in the context of globalization.

○state the mechanisms of enhancing competitiveness.

- international experience in improving the country's competitiveness.

In the third Chapter " Prospects for improving the international competitiveness of the Azerbaijani economy»:

- the current state of the sectors of the Azerbaijani economy from the point of view of international competitiveness is analyzed.
- the current state of international competitiveness of the Azerbaijani economy has been assessed.
- the main directions of increasing the international competitiveness of the Azerbaijani economy are identified and formulated.

Formatı 60x84 $_{1/16.}$ Həcmi 1 ç.v.

Sifariş 501. Ofset kağızı №1. Sayı 100.

"AA - Poliqraf" istehsalat-kommersiya birliyində

hazır diopozitivlərdən istifadə olunmaqla çap edilnişdir.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**МУХТАРЛЫ НИХАД ХАФИЗ ОГЛЫ**

# ПОВЫШЕНИЕ МЕЖДУНАРОДНОЙ КОНКУРЕНТОСПОСОБНОСТИ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА

Специальность: 5310.01 – Мировая экономика

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание научной степени
доктора философии по экономики

**БАКУ – 2018**